# ÇALDIRANA GEDƏN YOL

## romandan səhifələr



*Hüseynbala MİRƏLƏMOV*

***Səhər təzəcə açılmışdı. Yayın isti günü başlamamış Qızılbaş qoşununa hərəkət əmri verildi. Onsuz da qoşun əhli iki günlük istirahətdən sonra hərəkətə hazır idi.***

***Hüseyn Lələ bəy İsmayıl Mirzə üçün ilxıdan seçib ayırdığı atlara nəzər yetirdi. İki atı göstərib, yaxına çəkməyi tapşırdı. Atlardan biri tamam süd rəngli ağ at idi, digəri isə sarı-qızılı rəngə çalan kürən, alnının qaşqası, dörd ayağının səkili ilə seçilən Qarabağ atı idi. Təbrizəcən qalan yolu Qarabağ atının üstündə getməsi üçün İsmayıl Mirzənin önünə çəkdi. Gənc İsmayıl deyəsən ağ atdan nəzərini ayırmamışdı.***

***- Fəda olum sənə, hələ xeyli yol var, ağ atın üstündə yorularsan, bu Qarabağ atı yorğadı, səni incitməz, - Hüseyn Lələ bəy yüyənindən tutduğu atı İsmayıl Mirzənin önünə çəkdi, - bir bax, gör sənə necə yaraşır, elə bil Tanrı qələmi ilə çəkib, - dedi.***

***Həqiqətən Qarabağ atı gözəlliyi ilə göz oxşayırdı.***

***Hüseyn Lələ bəy işini ehtiyatlı tutan adam idi. Üzü Təbrizə doğru hərəkət boyu həmişə iki atı hazır saxlayır, şahanə libasla bəzəyir, İsmayıl Mirzə birinə süvar olanda, digərinə də elə həmin libasda olan bir gənc əyləşdirirdi. Kənardan baxanda kimsə fərqləndirə bilmirdi ki, İsmayıl Mirzə hansı ata süvar olub. İsmayıl Mirzə Qarabağ köhləninin belinə qalxmamış Hüseyn Lələ bəy astaca onun qulağına pıçıldadı:***

***- Sənə fəda olum, nigaran qalma, Təbrizə çatanda atı dəyişəcəksən. Hələlik belə məsləhətdi.***

İsmayıl Mirzə atasını vaxtsız itirəndən bəri Hüseyn Lələ bəyin himayəsi altında olmuşdu. Gözünü açandan bəri onun bir sözünü də çevirməmiş, bütün məsləhətlərini sidq-ürəklə qəbul eləmişdi. İndi də lələsinin sözlərinə etiraz eləmədi. Bəlkə də bu işləri Hüseyn Lələ bəyin onun təhlükəsizliyi üçün gördüyünü sövq-təbii, anlayırdı...

Bir vaxt Ərdəbildən çıxanda, çox kiçik bir dəstə ilə yola başlayan İsmayıl Mirzə artıq hərəkətə gəlmiş ucu-bucağı tükənməyən Qızılbaş qoşununa qürurla baxırdı. Qarabağ köhləninin üstündə əyləşmiş gənc İsmayıl yay günəşinin şəfəqlərinin altında Qızılbaşların papaqlarındakı qırmızı zolağı seyr elədikcə, sanki Tanrının möcüzəsi ilə yayın bu səhər çağında qırmızı bir laləlik görür və bu qırmızı laləliyin onun könlünə gətirdiyi duyğulardan bir az da fərəhlənirdi. Artıq ağ atın süvarisi də hazır idi. Hüseyn Lələ bəy də öz atına süvar olmuşdu. Və İsmayıl Mirzənin böyründə idi. Digər Qızılbaş əmirləri də onların əhatəsində. Əmir Zəkəriyyə, Şəmsəddin Lahicani, Əvdi bəy Davaçi, Bayram bəy Şamlı və digərləri İsmayıl Mirzənin atını elə dövrə almışdılar ki, fələk bir ox atsaydı belə keçib İsmayıl Mirzəyə yetməzdi. Onlar Şeyx Heydərin bir vaxt ən sadiq müridləri olmuşdular. Əslində, Şeyx Heydərin atasından və babasından gələn Səfəvi təriqətinin daşıyıcıları idilər. İsmayıl Mirzənin də yanına axın-axın gəlib qoşuna daxil olanlar elə həmin şəxslərin nüfuzunu əsas bilirdilər. Bu adamlar İsmayıl Mirzə ilə Səfəvi təriqəti arasında qırılmaz bir körpü idilər.

Hüseyn Lələ bəy qabaqcadan kiçik bir bölüyü Təbrizə göndərmişdi. Onların arasında Şeyx Əli də var idi. Şeyx Əli hələ neçə il əvvəl kiçik İsmayılı Sultan Yaqubun təqibindən xilas etmişdi. O, Şeyx Heydərin inanılmış adamlarından idi. Məqsəd o idi ki, Təbriz əhlinin əhvalını öyrənsinlər. Onsuz da alınan məlumatlara görə Hüseyn Lələ bəy də, elə digər əmirlər də yaxşı bilirdilər ki, çox ağır döyüşlərdən keçib, Təbrizə doğru yol başlayan İsmayıl Mirzənin Qızılbaş qüvvələri qarşısında orada davam gətirəcək müxalif bir qüvvə yoxdur. Az keçməmiş kəşfiyyat bölüyü geriyə qayıdıb xəbər gətirdi ki, Təbriz əhli başdan-başa bayram libası geyib. Hamı intizarla İsmayıl Mirzənin gəlişini gözləyir.

Günortaya yaxın Təbriz məscidinin minarələri görünəndə Hüseyn Lələ bəy əmirlə məsləhətləşməli oldu.

- Necə bilirsən, Əmir Zəkəriyyə, fəda olduğum elə suvar olduğu atla şəhərə daxil olsun, yoxsa...

O, sözünün gerisini gətirmədi. Əmir Zəkəriyyənin nə deyəcəyini gözlədi. Belə işlərdə onun çox tədbirli olduğunu yaxşı bilirdi. Əmir Zəkəriyyə əlini alnına qoyub ucu-bucağı görünməyən Qızılbaş qoşununun cərgələrini xeyli gözdən keçirdi. Sonra asta-asta dilləndi:

- Hüseyn bəy, sən çox ehtiyatlı adamsan. Nə üçün mürşidimizin varisini ağ ata mindirməməyinin səbəbini də bilirəm. Düz eləyirsən, amma hər cür ehtiyat tədbiri görülübsə, İsmayıl Mirzə ağ atın üstündə şəhərə daxil olsa yaxşıdır.

Onların yaxınlığında dayanmış Əvdi bəy Davaçi atını bir az irəli sürdü. Əmir Zəkəriyyənin böyründə dayanıb, əlini Təbrizə tərəf uzatdı.

- Bu şəhər Uzun Həsəndən bəri qeylüqal içərisindədir. Adamlar cana doyub, Ağqoyunluların bir-biri ilə çəkişən varisləri onları ağ günə çıxartmayıblar. Deyirəm, bəlkə, elə bu da Allahın bir rizasıdır ki, mürşidimizin varisi ağ köhlən üstündə Təbrizə varid olsun.

Nisbətən cavan Bayram bəy Şamlı da onun sözü ilə həmrəy olduğunu bildirmək üçün başını razılıqla tərpətdi.

Hüseyn Lələ bəyin bircə işarəsi ilə kiçik dəstə atlarını bir kənara döndərdi. Hüseyn Lələ bəy İsmayıl Mirzəyə işarə elədi. Və bu işarənin mənasını həm ağ atın üstündəki İsmayıl Mirzənin bənzəri olan gənc, həm də İsmayıl Mirzənin özü yaxşı başa düşdü. Və sanki heç nə dəyişməmiş kimi yollarına davam elədilər.

Yay günəşi günorta yerinə hələ çatmamış Qızılbaş qoşununun əvvəlcədən tapşırılmış hissələri Təbrizin küçələrinə daxil olub Səkkiz cənnət sarayını dövrəyə aldılar. Ayrı-ayrı meydanlarda, əhalinin sıx olduğu yerlərdə də Qızılbaş qoşununun bölükləri yerləşdirildi. Təbriz üləmaları, ağsaqqalları qoşunu hər yerdə xoş üzlə qarşıladı. Şəhər əhlinin hörmətli adamları İsmayıl Mirzənin önünə düzçörək gətirdilər. Əslində, onlar İsmayıl Mirzənin bu adamlardan hansı olduğunu da heç dəqiq bilmirdilər. Amma bilirdilər ki, əvəllər Ağqoyunlu sarayının ən qüdrətli sütunlarından biri olan Şeyx Heydərin oğlu Qızılbaş qoşununun başında sərkərdə kimi Təbrizə daxil olub.

Bir vaxt Şeyx Heydərin qoşununda qılınc çalmış, amma indi qocalıb qolu kirdardan düşmüş Ucal xan Təbriz əhli ağsaqqallarının arasından irəli çıxdı.

- Neçə vaxt idi ki, bizim günəşimiz batmışdı. Biz öz günəşimizin doğmasını gözləyirdik. İndi Xudanın kəraminə şükür olsun ki, günəşimiz qaranlıqları yarıb, üstümüzə işıq salmaqdadır.

Hüseyn Lələ bəy Ucal xanı çoxdan tanıyırdı. Əslində, onlar bir vaxt ən təhlükəli döyüşlərdə birgə olmuşdular. Ucal xan da Hüseyn Lələ bəyi və elə digərlərini də tanımışdı. Amma hökmranlıq qanunlarına əsasən o, qaydaları gözləyir, irəliyə gəlmirdi. Hüseyn Lələ bəy Ucal xanı süzdü. Onun qocaldığını görürdü, ağ saçın, saqqalın bir zaman qılıncı qalxan yaran bu döyüşçünün görkəminin xeyli dəyişmişdi. Amma qırğı baxışlarından onun keçmişdə kim olduğunu sezmək çətin deyildi.

- Ucal xan, Allah Təbriz əhlini var eləsin. Sənin kimi müdrikləri də Tanrı qorusun. Görürəm, sən də, Təbriz əhli də Şeyx Heydərin haqqı-sayını unutmayıbsınız. İndi nə məsləhət görürsən?

Təbriz üləmaları, ağsaqqaları, elə Ucal xan da bir ağızdan dilləndilər:

- Qədəmləri mübarək olsun!

- Mürşidimizin varisi bizə işıq gətirdi. Buyurun, Səkkiz cənnət sarayına.

İsmayıl Mirzə sarayın qarşısında atından endi. Hələ yüyəni əlindən buraxmamışdı. At başı ilə onun kürəyini sürtələdi. İsmayıl dönüb ata baxdı. Sanki at gözəgörünməz bir hissin təsiri ilə İsmayıl Mirzəyə xeyir-dua verirdi. İrəli, inamla saraya girməyini istəyirdi. Qabaqda və yanda əmirlər, Şeyx Heydərə yaxın olan keçmiş döyüşçülər, Hüseyn Lələ bəy də İsmayıl Mirzəyə bənzəri olan gənclə onun arasında sarayın pillələrinə yaxınlaşdılar. Təbriz varlıları tabaq-tabaq qızıl səpdilər. Bahalı xələtlər ardı-arası kəsilmədən ayrı-ayrı şəxslərin adından təhvil verilir, adamlar arası kəsilmədən İsmayıl Mirzənin ömrü üçün uca Allaha dualar eləyirdilər.

Təbrizin yayı tez gəlmişdi. Hava isti idi, amma insanlar öz sevinclərini bölüşmək üçün çəkilib getmək istəmirdilər. Hər kəs İsmayıl Mirzənin gəlişinə sevincini bildirmək, onun adına gətirdiyi hədiyyəsini təqdim etmək üçün növbə gözləyirdi. Dəvəli Rumlu qabaqcadan Hüseyn Lələ bəylə qərarlaşdığı kimi sarayda qayda-qanun yaratmağa başladı. İnanılmış Qızılbaşlardan kiçik dəstələr mühafizə yerlərini tutdular. Bayram bəy Şamlı Hüseyn Lələ bəyə təklif elədi:

- Elə indi məqamıdır, İsmayıl Mirzə gərək özünü şah elan eləsin.

Hüseyn Lələ bəy əli ilə ona bir qədər təmkinli olmağı işarə elədi. Uzun illər İsmayıl Mirzənin elmlərə yiyələnməsində müəllimi olmuş Şəmsəddin Lahicanini yaxına çağırdı və.

- Şəmsəddin xoca, əsas təntənəni nə vaxt başlayaq? - soruşdu.

Şəmsəddin Lahicani əlini saqqalına çəkdi, ani bir sükutdan sonra cavab verdi:

- Ən böyük təntənə əslində başa çatıb, Təbriz əhli İsmayıl Mirzəni qaranlıqda qalmış işıq həsrətliləri kimi qarşıladı. Bir qədər səbirli olmaq məsləhətdi, qoy rəmmallar da bir ulduzların gedişatını izləsin, həm də ötən vaxt ərzində Təbriz əhli arasında düşmən qüvvə olub-olmadığını görərik. Onsuz da bədxahlar çox gizlənməzlər. Neçə ki, hələ İsmayıl Mirzəni şah kimi görmürlər, cəsarət eləyib üzə çıxa bilərlər.

Hüseyn Lələ bəy gülümsündü, əslində, o özü də elə belə düşünürdü. Amma Bayram bəy Şamlını sakitləşdirmək üçün vəziyyətin aydınlaşmağını istəmişdi.

Bir həftə ərzində şəhərdə çal-çağır davam elədi. Əmirlər dəstə-dəstə gələn şəhər əhlinin nüfuzlu adamları ilə məşvərət-məsləhət keçirdilər. Doğrudur, Qızılbaşların şiyəliyi digər təriqət adamları, xüsusilə də qatı sünnilər arasında mübahisələr yaradırdı. Sünni təriqətinin qatı tərəfdarları narahatlıqları ifadə edir. Ötən bir neçə gün ərzində Qızılbaşlardan da onlara təhdidlər olduğundan şikayətlənirdilər.

Hüseyn Lələ bəy:

- Mən hər kəsin narahatlığını yaxşı başa düşürəm. Çox az bir vaxt keçəcək, görəcəksiniz ki, arada heç bir ixtilaf yoxdu. Heç nədən nigaran qalmayın.

...1501-ci ilin iyul ayının 31-i günü göy üzündə heç bir bulud yox idi. Səhər günəşi aləmi günə qərq eləmişdi. Carçılar şəhərin hər bir tərəfinə yayılıb, bu gün xütbə oxunacağı haqqında xəbərlər verdilər. İsmayıl Mirzənin ən yaxın adamları - əslində, bunlar Şeyx Heydərin yaxın adamları idi, elə səhərin sərin çağında bir araya gəldilər.

- Bu gün xoş gündür. Qurbanı olduğumuzun qədəmlərinə elə bu gün mübarək deyək, - Şəmsəddin Lahicani üzünü əmirlərə tutub, sanki gülər üzü, işıqlanmış gözləri ilə qeybdən xəbər gətirirmiş kimi dilləndi.

Hüseyn Lələ bəyin göstərişi ilə Uzun Həsənin taxtı geniş divan otağının baş tərəfinə qoyuldu. Hamı ayaq üstəydi. İsmayıl Mirzə saraydakı hücrəsindən çıxıb, inamlı addımlarla əmirlərin önündən keçdi.

İsmayıl Mirzə Uzun Həsənin taxtına əyləşdi.

Hamı bir ağızdan dilləndi:

- Allah mübarək eləsin!

Təbriz məscidlərindən rəvan səslərlə xütbələr oxundu.

*(Davamı var)*